# Ömrünün müdriklik dövrünü yaşayan müəllim



**Şərəfli və məsuliyyətli bir peşənin sahibi olan Vahid müəllim Pedaqoji fakültənin seçilən müəllimlərindəndir. Yorulmadan, səy və inamla çalışan Vahid Rzayev tələbə auditoriyasında uzun illərdir ki, həvəslə mühazirə oxuyur.**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev 1952-ci ildə Şərur rayonunun Şərur qəsəbəsində anadan olub. Sadə, səmimi, mehriban, səbirli və təmkinli, bütöv bir şəxsiyyət olan Məmməd kişinin, el ağbirçəyi Tamam xanımın ocağından gələn insanlıq keyfiyyətlərini daha da zənginləşdirib, illər keçdikcə formalaşdırıb, bütöv bir şəxsiyyətə çevrilib, əxlaqi saflıq, vicdanlılıq, dostluq, gözütoxluq nümunəsi göstərib. Hər şeydən əvvəl fikirləşmək, düşünmək, özünü dərk etmək, həyat təcrübəsi toplamaq və bunlara istinad edərək öz həyatını nizamlamaq, özü üçün mənəvi sərvətlər sistemi yarada bilmək qabiliyyəti onu yetkinlik yaşında kamilləşdirib. Onunla etdiyim söhbətlər məndə belə bir fikir formalaşdırıb ki, Vahid müəllim xasiyyətli insanlar xalqın kamil övladlarıdır.

Səkkizillik məktəbi Şərur rayonunun Yuxarı Daşarx kəndində oxumuş, orta məktəbi isə Siyaqut kəndində bitirmişdir. 1971-1975-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası üzrə ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1975-ci ildə Şərur rayonunun Aşağı Daşarx kənd səkkizillik məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamışdır.

1979-cu ildən müsabiqə yolu ilə Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasına müəllim, 2001-ci ildə isə baş müəllim vəzifəsinə təyin olunmuşdur.

2007-2017-ci illərdə Pedaqogika və psixologiya kafedrasının müdiri vəzifəsində işləmişdir. Hal-hazırda isə Pedaqogika və psixologiya kafedrasının dosenti vəzifəsində çalışır.

1983-cü ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun dissertantı olmuş, 1990-cı ildə "Zaqafqaziya xalqlarının pedaqoji əlaqələri (XIX əsr və XX əsrin əvvəlləri)" mövzusunda dissertasiya müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

Hələ tələbəlik illərindən tanıdığım Vahid müəllimi sədaqətli bir insan kimi qiymətləndirirəm. O, doğma torpağa, xalqına, ömrünü həsr etdiyi elm sahəsinə və dostlarına sədaqəti ilə seçilir. Alim kimi ortaya qoyduğu əsərləri, çoxsaylı elmi məqalələri və kitabları da göstərir ki, o, yorulmaq bilmədən işləyən, işin ağırlığından qorxmayan zəhmətkeş bir adamdır. Alimin Naxçıvanda məktəb və pedaqoji fikrin inkişaf tarixi ilə bağlı araşdırmaları oxucuların teztez müraciət etdiyi əsərlərdir.

Vahid Rzayev respublikamızın paytaxtı Bakıda, Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, İngiltərə, ABŞ, Kuba və Avstriyada Azərbaycan məktəb və pedaqoji fikrinin bir sıra problemləri ilə bağlı keçirilən konfrans və simpoziumlarda maraqlı mövzularla çıxışlar etmişdir. Onun tədqiqat sahəsi Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tərkib hissələrindən biri olan Naxçıvan mədəni mühiti, burada məktəb təhsilinin və yeni pedaqoji ideyaların yayılması və inkişaf mərhələləri ilə bağlıdır.

Vahid Rzayevin bir pedaqoq kimi tədris prosesinə böyük əhəmiyyət verməsi və tədrisin səviyyəsini yüksəltmək üçün yazdığı elmi-metodik əsərlər də böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, 2 monoqrafiyanın, 7 kitabın, 3 metodik vəsaitin və 100-dən artıq elmi məqalənin müəllifi olan Vahid müəllimin təhlil və tədqiq dairəsi mürəkkəb və müxtəlifdir. Eləcə də mövzu baxımından onun əsərləri çoxsahəli və rəngarəngliyi ilə seçilir. Onun müxtəlif illərdə qələmə aldığı "Murad Tutayuk", "Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri (XIX əsr və XX əsrin əvvəlləri)", "XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr", "Naxçıvanda qadın təhsili tarixindən", "Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri)" adlı əsərləri ölkənin nüfuzlu alimlərinin diqqətini cəlb etmişdir. Vahid Rzayevin əsərləri Azərbaycan elmi-pedaqoji mühitində yüksək qiymətləndirilmişdir.

Vahid müəllimi tanıyan hər kəs bilir ki, onun zəngin kitabxanası var. Bu kitabxanadan çox alim faydalanıb. Nə zaman yolun düşsə onu öz otağında, kitabların əhatəsində yazıb-yaradan görərsən.

Vahid müəllim gözəl müəllimdir. Rəftarında, oturuşunda, duruşunda, ədəb-ərkanında gözəl bir müəllim qüruru cəmləşib. Doğru deyirlər ki, müəllim nümunə, örnək olmalıdır, istər hərəkətlərində, istərsə də biliyində. Bu iki anlam Vahid Rzayevdə vəhdət yaradır. Vahid müəllimin ömrü işıqlı qayələrə, xeyirxah işlərə sərf olunur. Belə ömrə yaşamalı və ibrətli ömür deyirlər. Vahid müəllim hamıya nümunə ola bilən kamil şəxsiyyətdir.

Vahid müəllim gözəl ailə başçısıdır. O, haqlı olaraq övladları Zamin, Babək, Ramin və Emin ilə hər zaman fəxr edir. Böyük türk şairi Nazim Hikmətin belə bir qiymətli sözü var: "Ən gözəl günlərimiz yaşanmamış günlərdir". Vahid müəllimin də hələ yaşanmamış gözəl günləri irəlidədir.

Bəli, Vahid müəllim ömrünün müdriklik dövrünü yaşayır. Həmişə aktual mövzulara və aktual problemlərə toxunan, yorulmaq bilmədən yazıb-yaradan Vahid Rzayev bu gün də elmi tədqiqatlarını uğurla davam etdirir. Hazırda "Naxçıvanda məktəb təhsili və pedaqoji fikrin inkişaf tarixi (XIX əsr və XX əsrin əvvəlləri)" mövzusunda doktorluq dissertasiyasını tamamlamış və müdafiə ərəfəsindədir.

Vahid Rzayev gözəl pedaqoq, təcrübəli müəllim və tələbələrin sevimlisidir. Gözəl insani keyfiyyətləri ilə Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələrinin rəğbətini qazanmışdır. 2007-ci ildə o, yüksək ixtisaslı kadrların hazırlanmasında və uzunmüddətli elmi-pedaqoji fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür.

Biz Vahid müəllimi 70 illik yubileyi münasibətilə təbrik edir, cansağlığı, uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

✍ **Taleh Xəlilov,**
*Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin dekan müavini, pedaqogika üzrə fəlsəfə doktoru*